# “Döyüşçü” filmi Kann Qızıl Mükafatına layiq görülüb



Qaranlıqdan işığa doğru addımlayan boy-buxunlu bir insan... Bu, ikiqat paralimpiya, ikiqat dünya və yeddiqat Avropa çempionu İlham Zəkiyev, yol isə onu işığa, zirvəyə doğru aparan yoldur.

18 yaşından qaranlıqdadır - Qarabağ müharibəsində düşmən gülləsi gözlərinin işığını alandan bəri... Amma daxilindəki işığın köməyi ilə əfsanəvi “Döyüşçü”yə çevrilə bilib. BP-nin onun haqqındakı “Döyüşçü” filmi də məhz belə başlanır.

BP “London-2012” Oyunlarından başlayaraq İlham Zəkiyevə sponsorluq edir. O, BP-nin idmançı səfiridir və şirkət də onun haqqında qısa videoçarx hazırlayıb. “Döyüşçü” adlanan bu video “Rio-2016” Oyunları ərəfəsində BP-nin Beynəlxalq Paralimpiya Komitəsinə dəstək məqsədilə keçirdiyi “Daxildən Gələn Enerji” kampaniyası üçün hazırlanmış 8 filmdən biridir. Bu vaxtadək “Döyüşçü”yə bütün dünyada 18 milyon insan baxıb və film üç nüfuzlu beynəlxalq mükafata layiq görülüb.

İki mükafat “Cannes Corporate Media & TV Awards 2016” müsabiqəsində qazanılıb. Bunlar “Kann 2016 Qızıl Mükafat qalibi” (Marketinq Kommunikasiyası B2C kateqoriyasında) və “Kann mükafatı” (Xeyriyyə, Qeyri-kommersiya, Korporativ Sosial Məsuliyyət kateqoriyasında) mükafatlarıdır.

Üçüncü mükafat isə “EVCOM Clarion Awards 2016” müsabiqəsində əldə edilib. Burada “Döyüşçü” filmi Sosial ekran filmləri kateqoriyasında yüksək mükafata layiq görülüb. “EVCOM Clarion Awards” korporativ sosial məsuliyyət və davamlı inkişaf, o cümlədən ətraf mühit, müxtəliflik, bərabərlik, icma, xeyriyyə təşəbbüsləri, təhsil, etika, sağlamlıq və rifah sahələrindəki fəaliyyətlərin təltif edildiyi aparıcı tədbir və film mükafatlarıdır. Bu mükafatlardan həm BP-yə, həm də İlham Zəkiyevə sevinc payı düşür.

***“Azərbaycan”***

Azərbaycan.- 2017.- 26 dekabr.- S.8.